# Qismətəli, yeməkxana iti, saralmış yarpaq

*(Əvvəli ötən sayımızda)*

## *(Hekayə)*

Bu tamaşadan böyük fövqəladə nə isə gözləyən teatrın baş rejissoru, həm də tamaşanın quruluşçu rejissoru, teatrın işçiləri və müdir də tamaşadan sonra çox məyus idilər. Ona görə də hamı bir-birini dilucu təbrik eləyib, evlərinə dağılışdı. Hamı getdi evinə ki, heç olmasa quru çörək də olsa tapıb yesinlər. Axı, səhərdən heç kim heç nə yeməmişdi. Hamı özünü tamaşadan sonrakı banketə saxlamışdı... Teatrın müdiri növbətçini çağırıb ona pul vermişdi. O da gedib bir araq, beş-on kartof, peraşkisi alıb gətirmişdi. Müdir müəllifi və baş rejissoru öz otağına dəvət eləmişdi. Qismət Əliyə isə heç nə deməmişdi. Baxmayaraq ki, müdir lap onun yanından keçib öz otağına getmişdi. Qismət Əli də bir az müdirin qapısının yanında boynunu büküb dayanmışdı. Sonra da çox əsəbləşib, dodağının altında onu söyə-söyə, əsəbindən siqaret tüstüsündən saralmış lopa bığını darta-darta teatrdan çıxmışdı. Tozlu yolla tənbəl-tənbəl, elə bil çiyninə ağır bir yük götürmüş vəziyyətdə, evlərinə sarı gedirdi. Həmişəki kimi bu gün də onların evindən tamaşaya gələn yox idi. Düzdür, səhər o, evdən çıxanda böyük oğlu və böyük qızı teatra gəlmək istədiyini demişdilər. Amma anaları, yəni Qismət Əlinin arvadı Bəstiqız teatra aid elə bir biədəb söyüş söymüşdü ki..., daha uşaqlar da gəlməyə cürət eləməmişdilər. Qismət Əlinin evi əyalətin mərkəzinin lap qurtaracağında idi. O da bu, üç kilometrlik yolu iyirmi beş il idi ki, piyada gedib-gəlirdi. Çünki taksiyə pulu yox idi. Axşamlar avtobus işləmirdi. Səhərlər də avtobusda o qədər adam olurdu ki, gəl görəsən. Adamlar bir-birini itələyir, hərə bazara aparmaq istədiyi zənbilin içərisindəki şeyləri qoruyur, söyüşün biri isə bir qəpiyə çıxırdı. Hətta dəfələrlə kiminsə zənbilində sınan yumurtaları sındıranın başına vurulduğunu da görmüşdü Qismət Əli. Bir dəfə də həmin sınan yumurtalardan dörd-beşi təsadüfən onun da üstünə düşmüşdü. Çox sevdiyi ağ pencəyini zay eləmişdi. Ona görə də elə həmin vaxtdan o, yay-qış işə və işdən evə piyada getməyi hər şeydən üstün tuturdu. İşdə ondan soruşanda ki, "ən yaxşı marşrut bu əyalətdə hansıdı?" O, elə həmin dəqiqə əllərini ayaqlarına vurub deyirdi:

- Bizim əyalətin ən yaxşı, pulsuz və ən etibarlı marşrutu "on bir" nömrədi. Heç vaxt səni yarı yolda qoymaz. Nə də başına yumurta dəyməz.

On bir nömrəni o, ayaqlarına və ayaqqabılarına xitabən deyirdi.

Bu yumurta əhvalatını teatrda hamı bildiyindən Qismət Əli yumurta sözünü deyəndə onlar da gülürdülər. İndi də əlli yaşlı sənətkar, "on bir nömrə ilə" evlərinə gedirdi. Və yol boyu hələ də hirsi soyumamışdı. Qalın tüklü bığlarını barmaqları ilə darta-darta, teatrın müdirinin, baş rejissorunun qarasına deyinir, onları söyürdü. Düzdür, Qismət Əli onların üzünə söyməyə ürək eləməzdi. Ancaq indi qarasına, onların ardınca ürəklənib lap biədəb sözlər də deyirdi... Axı, niyə onlar Qismət Əlini yeyib-içməyə dəvət eləməmişdilər? Axı, bu tamaşada onun da əməyi çox idi. Çünki o da quruluşçu rəssam kimi bu tamaşanın müəlliflərindən biri sayılırdı. Üstəgəl də teatrın baş rəssamı idi. Hətta bütün dekorasiyanı pulsuz-parasız özü işləmişdi. Çünki teatrda icraçı rəssam yox idi. On beş-iyirmi gün idi ki, gecə-gündüz işləyirdi Qismət Əli. Lap gecənin yarısına kimi. Hətta teatrın müdiri ona söz vermişdi ki, "əməyini yüksək qiymətləndirəcək". Düzdü bir-iki dəfə ona araq, beş-on kartof peraşkisi almışdı. Həmin araqların yarısını da özü içmişdi. Qismət Əlini də hirs boğurdu ki, budur onun əməyini qiymətləndirmək? Heç olmasa, müdir onu otağına dəvət eləyib, yüz əlli qram araq verəydi və bir-iki kəlmə də xoş söz deyəydi. Nə olardı ki. Bununla kasıblaşmazdı ki... Onsuz da ki, "teatrı söküb-dağıdır".

- Elə arvadım Bəstiqız düz deyir. Düz eləyir teatrı söyür. Məni söyür, - deyə Qismət Əli dodağının altında mızıldandı və əlini cibinə saldı. Barmaqları cibindəki bir manat pula dəydi. Bu vaxt onun araq içməyə meyli, qarşısı alınmaz dərəcədə artdı. Axı, bu gün o, çox hirslənmişdi. Bir tərəfdən də teatrın müdiri söz vermişdi ki, maaş olacaq. İki ay idi ki, teatr işçiləri maaş almırdı. Tərslikdən bu gün maaş almaq da qalmışdı ya sabaha, ya da birisi günə. Bu sabahlar, birisi günlər də qurtarmırdı ki, qurtarmırdı… Artıq ay da ayı haqlamışdı. Dəbdəbəli premyera, banket, əyalətin baş məmuru ilə görüşmək ümidləri də puça çıxmışdı Qismət Əlinin. Axırda teatrın müdirinin də onu it yerinə qoymaması yaman yer eləmişdi ona. Bu hirsi də yalnız araq çıxarar və yuyub apara bilərdi. Gecənin bu vaxtı yalnız Qismət Əligilin evlərinin yaxınlığındakı, magistral yolunun beş addımlığında, "Qozlu" bağdakı yeməkxana açıq idi. Bu yeməkxana yol üstündə olduğundan, həm də xaricə gedən maşınlar da burdan gəlib keçdiyindən səhərə kimi işləyirdi. O, "Qozlu" bağa gəldi. Pulu bufetçiyə uzadıb dedi:

- Ayə qonşu, dədə balası, mənim zəhrimarımı ver...

-Baş üstə.

Bufetçi pulu alıb, taraş stəkana yüz əlli qram araq süzdü. Nimçəyə bir ədəd duzlu xiyar, bir tikə pendir və bir tikə çörək qoyub ona verdi. O, da araq stəkanını və nimçəni götürüb, havanın soyuq olmasına baxmayaraq, heç nəyə məhəl qoymadan, yeməkxananın həyətinə çıxdı. Həyətdəki qoz ağaclarının birinin altında yerə basdırılmış dəmir stola yaxınlaşdı. Nimçəni və stəkanı stolun üstünə qoyub, cibindən siqaretini və kibritini çıxarıb stolun üstünə atdı. Yerə basdırılmış taxta stulda oturdu. Qoz ağacından asılan fənər, həyatının sonunu yaşayan adam kimi yavaş-yavaş közərirdi. Uzaqdan baxan olsaydı, heç ilk əvvəl burada adam oturduğunu dəqiq görməzdi...

Qismət Əli dodağının altında teatrın müdirinin və baş rejissorunun qarasına yenə bir biədəb söyüş söyüb, araqdan bir qurtum içdi. Elə bil bu söyüş, onun ilk sağlığı idi. O, ümumiyyətlə, lap çoxdan idi ki, arağı qurtum-qurtum içməyə öyrəşmişdi. Bu da ona görə idi ki, az araq içsə də Qismət Əli həmişə keflənmək istəyirdi. Sərxoş olanda onun eyni açılırdı. Az dərd çəkirdi... Az fikir eləyirdi...

Bu vaxt yeməkxananın iti elə bil haradansa iy bildi ki, Qismət Əli buradadı. Qoz ağacının altında oturub. Qaça-qaça onun yanına gəldi. Bir az ondan aralıda şöngüyüb oturdu. İt hiss edirdi ki, Qismət Əli ona yeməyə heç nə verməyəcək. Buna görə də ondan heç nə də gözləmirdi. Baxmayaraq, Qismət Əli ona heç vaxt yeməyə bir şey vermirdi, ancaq onlar dost idilər. Hə, hə dost idilər. Hər dəfə Qismət Əli bura gələndə it də gəlib bir tərəfdə şöngüyürdü və onlar çox maraqlı söhbət eləyirdilər. Ürəkdən danışırdılar. Dərdləşirdilər. Bu söhbəti də ancaq ikisi eşidirdi. İkisi başa düşürdü. Qismət Əli və yeməkxana iti. İndi o, çox fikirli olduğundan, yeməkxana itinin nə vaxt gəlib onun qarşısında şöngüdüyünü görməmişdi. İt gəlib şöngüyən kimi bir az Qismət Əliyə baxdı. Onun itə fikir vermədiyini görüb, yüngülvari hürdü. Bu vaxt o, başını yuxarı qaldırıb, iti gördü. Həmsöhbətini gördükdə çox sevindi və dedi:

- Salam, dostum. Gör nə qədər fikirliyəm ki, sənin gəldiyini görməmişəm...

- İndi nəyin fikrini eləyirsən? - deyə İt onun üzünə maddım-maddım baxıb mırıldadı.

- Dərd birdi, ikidi... Bu gün məni yaman çox doladılar. Axırda da maaş ala bilmədim...

- Maaş sözünü elə şəstlə deyirsən ki, elə bil milyon alırsan. Aldığın maaş qəpik-quruşdu. Onun da on faizini müdiriniz saxlatdırır yuxarılara verməyə... Yerdə qalanı da heç on beş günlük yeməyinizə çatmır. Qalan günləri də arvad elə hey deyinir evdə.

- Hər nədisə, iki ayın maaşına evimizdə yaxşı qazan qaynada bilərdik. Bu ayın əvvəlində uşaqların üçünün ad günü və arvadla evlənməyimizin də iyirmi ili tamam oldu. Heç birində qazan qaynada bilmədik...

*(Ardı var)*

**Ağalar İDRİSOĞLU**

**Azad Azərbaycan.- 2023- cü il.- 18 may.- S. 8.**